




# Şərin qurbanı olan, Əfqanıstanın od-alovundan sağ çıxan, övladının yanına tələsən, iki dəfə dəfn edilən… Quba şəhidləri

**1990-cı ilin 20 Yanvarı Azərbaycan tarixinin şanlı səhifəsidir. Bu gün hər bir azərbaycanlının, sülhsevər insanların yaddaşında əbədiyyətə qədər gedəcək bir tarixdir. Hər zaman bu tarix xatırlanacaq, yad ediləcək. 35 il keçməsinə baxmayaraq, insanların beynindən həmin Qanlı Yanvar günlərinin acıları silinməyəcək.**

Əsas hadisələr paytaxtda baş versə də, regionlarımız da həmin faciənin acısını yaşamışdır. Qanlı Yanvar gecəsi rayonlara xəbər verləndə ki, paytaxtda xeyli insan şəhid olub, hər kəs öz yaxın çevrəsini axtarmağa başlamışdır. Həmin günlər Qubaya xəbər gəlmişdi ki, 20 Yanvar şəhidlərinin dördü bu rayonun oğullarıdır. Dördünün də yaşı kiçicik fərqlə bir-birinə yaxın idi. Eyni illərin adamları olan bu insanlar şəhid adı ilə bu gün axirətdə birləşiblər.

Raqif Hüseynovu Qubada hamı yaxşı tanıyırdı. 8 övlada tərbiyə verən, qəlbi təmiz, hamı ilə ünsiyyət qurmağı bacaran Raqif 1985-ci ildə günahsız yerə 8 il həbs cəzası almışdı. O, cinayət baş verən ərazidən təsadüfən keçdiyinə görə həbs edilmişdi. Sonradan cinayətkarlar onun üzünə duraraq hadisənin onun etdiyini bildirmişlər. Raqifin şəhidliyindən sonra o adamların bəlasını Allah verdi. Bu gün onu şərləyənlərin nəslindən bir nəfər də olsun sağ adam qalmayıb. Raqifin övladları, nəvələri isə Qubanın fəxridirlər.

20 Yanvar ərəfəsində Raqif azadlığının ilk günlərini yaşayırdı. Bakıda həbs yerindən pasportunu alıb Qubaya qayıtmalı idi. Pasportunu alan Raqif indiki 20 Yanvar dairəsinə gəlir ki, yolüstü maşınlardan biri ilə Qubaya qayıtsın. Lakin taksidən düşdüyü yerdə atılan gülləyə tuş gəlir. Raqif Hüseynov azadlığın şirinliyini dadmamış həlak olur.

Elçin Qeybullayev əsgəri xidmətini Əfqanıstanda keçmişdi. 1968-ci ildən olan Elçin orta məktəbdən sonra Xaçmazdakı texniki peşə məktəbini bitirmişdi. Əsgərlikdən sonra Bakıya gələrək burada 20 saylı İxtisaslaşdırılmış Tikinti İdarəsinə işə düzəlmişdi. Az zamanda özünə hörmət qazanan Elçinə mənzil vermək istəyən idarənin məsul işçisinə belə demişdi: "Qardaş, mənə burada heç nə lazım deyil. Yataqxanada qalıram bəsimdi. Mən onsuz da bir ilə çıxıb Qubaya gedəcəm. Kimin evə ehtiyacı varsa, ona da verin. Mənim üçün rayonum dünyanın cənnətidir".

Həmin 20 Yanvar gecəsi 2 saylı tibb məktəbindən təmirdən qayıdırdı. İki nəfər idilər. Yolda əlisilahlı əsgərləri görəndə bir qədər çaşqınlıqla əsgərlərə tərəf gedirlər. Onlara silah qaldıranlara "Mən beynəlmiləl döyüşçüyəm. Axı nə olub bu şəhərdə?!" deyir. Lakin əsgərlər onları atəşə tutur. Elçin səhər səkinin kənarında başını müqəddəs saydığı torpağa qoyub gözləri əbədi yumulmuş halda tapılır. Əfqanıstanda oddan-alovdan keçsə də, bir vaxtlar tərkibində döyüşdüyü ordunun əsgərləri tərəfindən qətlə yetirilən Elçin cənnət bildiyi Qubada Şəhidlər xiyabanında dəfn olunur.

Mirzə Qəniyevin soykökü Yerfidəndir. 1958 -ci ildə anadan olan Mirzə ailəsi ilə birlikdə Bakıda yaşayırdı. Su idarəsində çilingər işləyən Mirzə gec evlənmişdi. İlk və yeganə övladı Şövqini dünyalar qədər sevirdi. Həmişə iş yerində dostlarına "Gərək tez evlənəydim, uşaq nə yaxşı varlıq imiş" deyirdi.

Həmin gün də oğlunun yanına tələsən Mirzə taksiyə minir. Evlərinə çathaçatda maşını vururlar. Sonra onları maşından çıxarıb bərk döyürlər. İki güllə yarası alan Mirzə xeyli müddət həyatla ölüm arasında mücadilə aparır. Fəqət alın yazısı onu ailəsinə deyil, müqəddəs şəhidlik zirvəsinə qovuşdurur.

Müzəffər Həsənov da Yerfi kəndində doğulmuşdu. 4 uşaq atası olan Müzəffər bir müddət əvvəl Bakıya köçmüşdü. Sürücü işləyib ailəsini dolandırırdı.

Müzəffərin ölümü də qəribə olmuşdu. O, iki dəfə ölüb və iki dəfə də dəfn edilib. Həmin gecə oğlunu evdə tapmayan Müzəffər çölə çıxır. Oğlu isə sən demə qonşuda imiş. Bir qədər sonra evə qayıdan Zahir də atasının ardınca onu axtarmağa gedir. O, səhərə yaxın kolların arasından atasının pencəyini tapır. Ətrafı axtaran oğul bir meyit görür. Həmin meyit əzilmiş halda olduğundan onu tanıya bilmirlər. Boyuna görə onu atası bilən Zahir dostları ilə parçalanmış cəsədi məscidə aparır. Atasının adı ilə Şəhidlər xiyabanında dəfn edilir, üç mərasimi də verilir.

Ancaq sonrakı gün Müzəffərin sağ olduğu xəbəri yayılır. Xəstəxanaya gələn Zahir atasını görür. Sonradan Müzəffər bunları söyləyib: "Əsgərlərə yaxınlaşıb salam verdim. Onlar məni qarşılarında görəndə yaxınlaşıb burda niyə dayandığımı soruşdular. Dedim ki, oğlumu axtarıram. Sonra onlar məni döyməyə başladılar. Məni tankın yanına sürüyüb apardılar. Bu zaman ora yaxınlaşan bir nəfər zabit məni onların əlindən aldı. Danışığından ukraynalıya oxşayırdı. Həmin zabit maşın tutub məni xəstəxanaya göndərdi".

Lakin həkimlər Müzəffəri xilas edə bilmirlər. O, yanvarın 29-da dünyasını dəyişir. Üstündən 35 il keçsə də, onun yerinə dəfn edilənin kimliyi bilinmir. Hər dəfə xiyabana gələn əzizləri Müzəffərlə bərabər, onu da yaxın adam kimi ziyarət edir, ruhuna dualar oxuyurlar.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 19 yanvar (№ 12).- S.13.